**Azərbaycan Respublikası - Braziliya Federativ Respublikası münasibətləri**

**Diplomatik əlaqələrə dair qısa məlumat:**

Azərbaycan Respublikası və Braziliya Federativ Respublikası arasında diplomatik əlaqələr 1992-ci ilin 23 oktyabr tarixində qurulmuşdur. Azərbaycan Respublikasının Braziliyadakı Səfirliyi 9 may 2012-ci ildə, Braziliya Federativ Respublikasının Azərbaycandakı Səfirliyi isə 22 iyun 2009-cu ildə açılmışdır. Elnur Sultanov 10 fevral 2012-cu ildə Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin edilmişdir.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:**

**Xarici islarNazirlari:**

4 aprel 2006-cı il - Elmar Məmmədyarovun rəsmi səfəri;

**Parlamentlərarası əlaqələr:**

Səfirliyimiz fəaliyyətə başladıqdan sonra Braziliya Parlamenti ilə mütəmadi olaraq iş aparılmış və nəticədə4 sentyabr 2013-cü il tarixində Braziliya Parlamentinin Deputatlar Palatasında Braziliya-Azərbaycan Dostluq Qrupu yaradılmışdır. Dostluq Qrupunun sədri KladioKajadodur. 8 aprel 2014-cü il tarixində Braziliya Milli Konqresinin Senatında da Braziliya-Azərbaycan Dostluq Qrupu yaradılmışdır. Dostluq qrupunun sədri KristovamBuarkedir. 2012-ci ildə AR Milli Məclisində Azərbaycan-Braziliya Parlamentlərarası əlaqələr üzrə Dostluq Qrupu fəaliyyətə başlamışdır.

**Humanitar sahədəəməkdaşlıq:**

AR Gənclər və İdman Nazirliyinin dəstəyi ilə səfirlik tərəfindən 2013-2015-ci illərdə braziliyalı gənclər arasında “Mən Azərbaycan haqqında nə bilirəm” adlı inşa müsabiqəsi keçirilmişdi.
**6 avqust - 8 sentyabr 2013-cüildə** Braziliyada Azərbaycan bədii filmlərinin nümayişi keçirilmişdir.
**23-26 aprel 2015-ci ildə**Rio de JaneyrodaAzərbaycan mədəniyyət həftəsi keçirilmişdir.
**17 noyabr – 2 dekabr 2015-ci ildə**PortoAleqre şəhərində 14 Azərbaycan bədii filminin nümayişikeçirilmişdir.

**Muqavib-huquq bazasi:**

Azərbaycan Respublikası ilə Braziliya Federativ Respublikası arasında 5 sənəd imzalanmışdır.

**Son yenilənmətarixi: 05.02.2016**